**“Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planından irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2017-ci il üçün tədbirlər planı” üzrə görülmüş işlərə dair hesabat**

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| 1.1. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron xidmət növlərinin Siyahısı”nın təkmilləşdirilməsi, siyahıda olan, lakin tam fəaliyyət göstərməyən xidmətlərin fəaliyyətinin təmin edilməsi və “Elektron hökumət” portalına yeni xidmətlərin inteqrasiya edilməsi | 2016-2018 | Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərin təşkili sahəsində təkmilləşdirmə işləri aparılaraq elektron xidmətlərdən istifadə qaydaları barədə təlimatlar yenidən işlənmiş, elektron xidmətlər üzrə yeni bildiriş formaları hazırlanaraq onların avtomatik rejimdə sorğu edən şəxslərə göndərilməsi tam təmin edilmişdir. Bununla yanaşı, bütün elektron xidmətlərin mobil versiyaları hazırlanaraq Komitənin veb səhifəsinin mobil variantında yerləşdirilmiş və “Elektron hökumət” portalına inteqrasiya olunmaqla onlar tam fəaliyyət göstərmişdir. Eyni zamanda, sözügedən elektron xidmətlərə dair inzibati reqlamentlərin təkmilləşdirilməsi ilə bağlı müvafiq işlər həyata keçirilmiş, nəticədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (“ASAN” xidmətin) qiymətləndirməsinə əsasən Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlər yüksək ballarla qiymətləndirilmişdir. Belə ki, “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidməti 26 mümkün baldan 24 balla, “Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi” elektron xidməti 24 mümkün baldan 24 balla, “Statistik nəşrlərin (kitabların) onlayn satışı” elektron xidməti 24 mümkün baldan 22 balla, “Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi” elektron xidməti 19 mümkün baldan 19 balla və “Statistik məlumatların (göstəricilərin) verilməsi” elektron xidməti 22 mümkün baldan 21 balla qiymətləndirilmişdir. |
| 1.3. | “Elektron hökumət” portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin və təqdimatların keçirilməsi | 2016-2018 | Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərin “Elektron hökumət” portalı vasitəsilə təqdimatına dair vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin keçirilməsi 2017-ci ildə də davam etdirilmiş, Komitənin internet səhifəsinin “E-xidmətlər” bölməsində yerləşdirilmiş 5 adda elektron xidmətlər haqqında məlumat təkmilləşdirilmiş və Komitədə keçirilən mətbuat konfranslarında və istifadəçilərlə görüşlərdə Dövlətstatkom tərəfindən göstərilən elektron xidmətlər haqqında zəruri məlumatlar verilmiş, xidmətlərin xüsusiyyəti izah edilmiş və iştirakçıların aidiyyəti üzrə sualları cavablandırılmışdır. |
| 1.4. | Elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasının təmin edilməsi | 2016-2017 | “Hesabatların elektron təqdim edilməsi sistemi”ndə respondentlər üçün fəaliyyətin müvəqqəti dayandırılması ilə bağlı skan olunmuş arayışın elektron təqdim olunması funksiyasının yaradılması” məqsədilə fəaliyyətini müvəqqəti dayandırmış hüquqi və fiziki şəxslərdən jpg, jpeg, gif, png, bmp və pdf formatlarında onlayn qaydada arayışları qəbul etmək üçün proqram təminatı hazırlanmış və müvafiq funksiya Dövlət Statistika Komitəsinin internet səhifəsində (https://www.stat.gov.az/menu/4/e-reports/ və https://www.stat.gov.az/menu/11/) yerləşdiril-miş, arayışların onlayn şəkildə, elektron qaydada məlumat bazasına daxil edilməsi üçün hazırlanmış bu funksiyanın tətbiqi ilə fəaliyyəti olmayan statistik vahidlərə yerli statistika orqanına gəlmədən fəaliyyətinin olmaması barədə məlumatı elektron sənəd formasında təqdim etməsi üçün imkan yaradılmışdır. Eyni zamanda, proqram imkan verir ki, Dövlət Statistika Komitəsinin şöbələri tərəfindən hesabat intizamına nəzarət daha da gücləndirilsin |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | | | və reyestrin aktuallaşdırılması prosesi daha qısa müddətdə yekunlaşdırılsın. Sənədlərin bu formada təqdim edilməsi həmçinin arayışlar üzrə elektron arxivlərin aparılmasına da imkan yaradacaqdır. |
| 2.4. | Dövlət orqanlarının internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrinin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi | 2016-2018 | Komitənin internet səhifəsinin mobil versiyasının mütəmadi olaraq təkmilləşdirilməsi və statistik məlumatların vaxtlı-vaxtında yenilənməsi davam etdirilmişdir. “Facebook” sosial şəbəkəsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin səhifəsinin aktiv fəaliyyəti təmin edilmiş və hesabat ilində səhifənin 6 mindən çox izləyicisi olmuşdur. |
| 4.1.1. | Açıq hökumət prinsiplərinin təşviqi və korrup-siyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəb-büslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi | 2016-2018 | İl ərzində Dövlət Statistika Komitəsinə 24 qeyri-hökumət təşkilatından statistik informasiya dəstəyi ilə bağlı müraciət daxil olmuş və hər biri müvafiq qaydada cavablandırılmışdır. |
| 4.2.1. | İctimai şuraların fəaliyyətinin təşkil edilməsi, gücləndirilməsi və davamlılığının təmin edilməsi | 2016-2018 | Yeni tərkibi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.09.2016-cı il tarixli, 346 nömrəli qərarı ilə təsdiq edilmiş Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının fəaliyyəti 2017-ci il üçün təsdiq olunmuş iş planı əsasında təşkil edilmiş, il ərzində Şuranın 2 iclası keçirilmiş və ümumilikdə 5 məsələ müzakirə edilmişdir. Eyni zamanda, 2017-ci il 9 fevral tarixində Azərbaycanın Milli Statistika Sisteminin Qlobal Qiymətləndirilməsini həyata keçirən Avrostat, BMT-nin Avropa İqtisadi Komissiyası və Avropa Azad Ticarət Assosiasiyasının ekspertləri Statistika Şurasının üzvləri ilə görüş keçirmişlər. |
| 4.2.2. | İctimai şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsi | 2016-2018 | Dövlət Statistika Komitəsinin internet səhifəsindəki “Statistika Şurası” bölməsi il ərzində mütəmadi olaraq aktuallaşdırılmışdır. |
| 5.6. | Büdcə təşkilatları tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifələrində yerləşdirilməsi | 2016-2018 | 2017-ci ildə Dövlət Statistika Komitəsində 10 tender proseduru keçirilmiş və qanunvericiliyə uyğun olaraq, hər biri ilə bağlı zəruri məlumatlar müvafiq qaydada İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin internet səhifəsində yerləşdirilmiş və “Respublika” qəzetində dərc edilmişdir. |
| 8.6. | “ASAN xidmət” mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2016-2018 | Hesabat dövründə Dövlət Statistika Komitəsində keyfiyyətin idarə edilməsi sistemi İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun olaraq təkmilləşdirilmişdir. Rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində növbəti uyğunluq sertifikatının əldə olunması istiqamətində “SGS Azeri LTD” audit şirkəti ilə birlikdə müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi aparatının şöbələri və keyfiyyətin idarə edilməsi sisteminin (KİS) tətbiq olunduğu yerli statistika orqanları üzrə 2017-ci il üçün Audit proqramı”na əsasən cari ilin yanvar–iyun aylarında Komitənin aparatında və KİS-in tətbiq olunduğu 13 yerli statistika orqanında (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran şəhər və Saatlı, Ağstafa, Bərdə, Ağdam, Samux, Balakən, Zaqatala və Qax rayon statistika idarələri) auditlər keçirilmiş, Dövlət Statistika Komitəsi Azərbaycanda mərkəzi icra hakimiyyəti orqanları, həmçinin MDB statistika qurumları arasında ilk olaraq İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminə dair beynəlxalq uyğunluq |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | | | sertifikatına layiq görülmüşdür. Təşkilati işlərin təkmilləşdirilməsi və cari işlərə operativ yanaşmanın təmin edilməsi, qarşıda duran vəzifələrin vaxtında və operativ icra edilməsi, statistik vahidlərlə qarşılıqlı əlaqələrin genişləndirilməsi və onlarla mütəmadi olaraq təlimati müşavirələrin keçirilməsi, vətəndaşların müraciətlərinin vaxtında cavablandırılması, əməkdaşların etik davranış qaydalarına riayət edilməsi və onların bilik və bacarıqlarının artırılması üçün 2017-ci il 13 noyabr tarixli, 01/2–61 nömrəli məktubla yerli statistika orqanlarına əlavə tapşırıqlar verilmiş, həmçinin “ASAN School” könüllülük proqramının “Master 2” pilləsi çərçivəsində 11 ASAN könüllünün Dövlət Statistika Komitəsi aparatında il ərzində təcrübə keçməsi üçün şərait yaradılmışdır. |
| 8.7. | Sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və müvafiq tədbirlərin görülməsi | 2016-2018 | Sahibkarların qarşılaşdıqları problemlərin öyrənilməsi və həlli məqsədilə Komitənin internet səhifəsində “Sahibkar üçün 7 sual” rəy sorğusu keçirilmiş, hər rübün yekunu üzrə nəticələr Komitənin Elmi-metodoloji şurasında müzakirə edilmiş və aidiyyəti üzrə müvafiq tədbirlər görülmüşdür. Ümumilikdə sorğuda 167 nəfər iştirak etmişdir. |
| 8.9. | İqtisadi sahədə həyata keçirilən islahatlar, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi | 2016-2018 | Komitə tərəfindən göstərilən elektron xidmətlər, beynəlxalq və yerli təşkilatlarla görüşlər, statistika üzrə yenilənən metodologiyalar barədə məlumatlar mütəmadi olaraq internet səhifədə yerləşdirilmişdir. Eyni zamanda, il ərzində statistik məlumat istifadəçiləri ilə 12 seminar təşkil edilmiş və bu seminarlarda 169 nəfər iştirak etmişdir. Dövlət Statistika Komitəsinin və Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin mütəxəssisləri iqtisadi sahədə həyata keçirilən islahatlar, statistika sahəsində baş verən yeniliklər haqqında kütləvi informasiya vasitələrində məqalələrlə çıxış etmiş, o cümlədən “Statistika xəbərləri” elmi-praktik jurnalında statistika sisteminin əməkdaşları tərəfindən 20 məqalə dərc etdirilmişdir. |
| 10.2. | Müxtəlif hədəf qrupları, o cümlədən dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış üzrə təhsil-tədris proqram-larının hazırlanması, təlim və treninqlərin keçirilməsi, belə təşəbbüslərin dəstəklənməsi | 2016-2018 | İşçilərin bilik və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə “Etik davranış qaydaları və prinsiplərinin öyrənilməsi və onlara riayət edilməsi”, “Maraqlar toqquşmasının qarşısının alınması”, “Korrupsiyaya qarşı mübarizə haqqında” mövzular daxil edilməklə, təsdiq edilmiş təlim proqramı əsasında Dövlət Statistika Komitəsinin işçiləri üçün təlimlər təşkil edilmiş və bu təlimlərdə 241 nəfər iştirak etmişdir. |
| 10.4. | Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində sosial çarxların, bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və paylanması | 2016-2018 | Hüquqpozmalar statistikasına dair nəşr olunmuş “Azərbaycanda cinayətkarlıq” adlı rüblük bülletenlər və “Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar” adlı məcmuə istifadəçilərə göndərilmiş, eyni zamanda onların elektron versiyaları Komitənin internet səhifəsində yerləşdirilmişdir. |
| 11.1. | Fəaliyyət Planının icrasının monitorinqi prosesinə informasiya texnologiyalarının tətbiqi üzrə tədbirlərin görülməsi, dövlət orqanları tərəfindən Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasına məsul şəxslərin müəyyən edilməsi | 2016-2018 | Fəaliyyət Planı üzrə Dövlət Statistika Komitəsində icrası nəzərdə tutulmuş tapşırıqların monitorinqi prosesi Komitədə hal-hazırda tətbiq olunan “Sənəd dövriyyəsi-kargüzarlıq” (IRMbusiness Doc) proqram təminatı vasitəsilə həyata keçirilir. Dövlət Statistika Komitəsinin icraçısı olduğu bütün tapşırıqların icra vəziyyətinə proqram təminatı vasitəsilə elektron nəzarət həyata keçirilir, məlumatların elektron məlumat bazasına daxil edilməsi, çapı, icra olunmuş tapşırıqların elektron şəkildə arxivləşdirilməsi və s. təmin edilir. |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| 11.2. | Dövlət orqanlarının daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili | 2016-2018 | Hesabat dövründə statistika sistemində korrupsiya halları aşkar edilmədiyindən, hüquq mühafizə orqanlarına məlumat verilməsinə zərurət yaranmamışdır. |
| 11.5. | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi | 2016-2018 | Komitənin internet səhifəsinin "E-xidmətlər" bölməsində yerləşdirilmiş 5 adda elektron xidmət haqqında məlumatlardan, "Statistik məlumat bazası", "İnteraktiv cədvəllər" və "E-hesabatlar" bölmələrində yerləşdirilmiş yeni məlumatlardan, Komitə rəhbərliyinin və şöbə müdirlərinin televiziya müsahibələrində, təşkil olunan mətbuat konfranslarında, istifadəçilərlə görüşlərdə Dövlətstatkomda həyata keçirilən elektron xidmətlər haqqında məlumatlardan, Komitənin internet səhifəsində vaxtlı-vaxtında yenilənən statistik məlumatlardan, il ərzində hazırlanmış və Komitənin internet səhifəsində yerləşdirilmiş 88 press-relizdən, həmçinin "Statistika xəbərləri" jurnalı vasitəsilə yayılan aktual məlumatlardan digər istifadəçilər kimi, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri də yararlanmış və onların sorğuları mütəmadi olaraq cavablandırılmışdır. |
| 11.6. | Açıq hökumət və korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin icra vəziyyəti və qiymətləndirilməsi ilə bağlı ixtisaslaşmış sorğuların, araşdırmaların keçirilməsi və nəticələrinin elan edilməsi | 2016-2018 | Etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər həyata keçirilmiş, işlərində nöqsanlara yol vermiş 7 nəfər dövlət qulluqçusuna qarşı intizam tənbeh tədbiri tətbiq edilmişdir.<br>"Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı il üzrə hesabatı Komitənin internet səhifəsində yerləşdirilmiş, istifadəçilərin statistik məlumatlarla təmin olunması səviyyəsini müəyyənləşdirmək məqsədilə onlar üçün internet səhifədə məmnunluq sorğusu keçirilmiş və nəticələri təhlil edilmişdir. |